**UOT 82.0:001.92**
**https://doi.org/10.59849/2218-4783.2025.2.190**

**RAMİZ QASIMOV**

# ÜZEYİR BƏY HACIBƏYLİ ÖMRÜNÜN UVERTÜRASI: ƏDƏBİ, ELMİ VƏ MƏDƏNİ QAYƏSİ

*Məqalədə dahi Azərbaycan yazıçısı, publisisti, bəstəkarı, musiqişünası, ictimai xadimi Üzeyir Hacıbəylinin Azərbaycan xalqının mədəniyyəti və ədəbiyyatında misilsiz xidmətlərindən bəhs olunmuşdur. Qeyd edilmişdir ki, Qarabağda boya-başa çatan Üzeyir bəyin mənəvi tərbiyəsi və gələcək taleyində böyüdüyü mühit böyük rol oynamışdır. Zəngin musiqi mühitinə malik olan Qarabağ Üzeyirin gələcək bəstəkarlıq və musiqişünaslıq yolunu müəyyənləşdirmiş, onun istedadlı yazıçı, tərcüməçi və publisist kimi tanınmasında mühüm yer tutmuşdur. Üzeyir Hacıbəyov Azərbaycan ədəbiyyatını öz əsərlərilə zənginləşdirən, klassik irsi yeni dövrdə yaşadan və musiqi sahəsinə gətirməklə daha da yaddaqalan olmasına vəsilə olan qüdrətli bir sənətkardır. "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və Arvad" kimi misilsiz komediyaları özünün tənqidi ruhu və qaldırdığı problemlərlə ictimai şüurun oyanışında mühüm rol oynadığı kimi, milli musiqi ənənələri üzərində yaratdığı mahnıları da mənəvi dəyərlərimizin qorunması və inkişafında mühüm istiqamət təşkil etmişdir. Onun zəngin publisistik irsi Azərbaycan xalqının milli oyanışı və istiqlal mücadiləsi ideyaları ilə qovuşmuşdur. Ü.Hacıbəyov bir sıra mətbuat orqanlarında çalışmış və öz məqalələri ilə çıxış etmişdir. Böyük ədib "Həyat", "İrşad", "Molla Nəsrəddin", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal", "Kaspi", "Tərcüman" kimi dövrün mötəbər mətbuat orqanlarında öz fəaliyyətilə gündəmə gəlmişdir. Ü.Hacıbəyov Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət mətbuat orqanı olan "Azərbaycan" qəzetində də məsul işlərlə vəzifələnmiş, qiymətli əsərləri və xidmətləri ilə yadda qalmışdır. Onun publisist əsərləri Azərbaycan istiqlaliyyətinin tarixi kimi də etibarlı mənbə olmağa layiqdir. Xalqın istiqlaliyyət hüququna çatmasında, milli şüurunun oyanışında Ü.Hacıbəylinin də yaradıcılıq fəaliyyətinin mühüm xidməti olmuşdur. Məşhur "Ordan-burdan" silsilə məqalələrində dövrün bir sıra vacib məsələlərini qaldırmağa müvəffəq olmuşdu. Ü.Hacıbəyli həm də Azərbaycan peşəkar milli musiqisinin inkişafında xidmətlər göstərmiş, xalq mahnılarının nota alınmasında, klassik və folklor irsimizin operaya çevrilməsində, musiqişünaslıq elminin formalaşmasında əvəzsiz xidmətlər ortaya qoymuşdur. "Leyli və Məcnun", "Şeyx Sənan", "Şah Abbas və Xurşid Banu", "Əsli və Kərəm", "Harun və Leyla", "Rüstəm və Söhrab", "Koroğlu" kimi operaları mədəniyyətimizin inkişafında görkəmli rol oynamışdır.*

**Açar sözlər:** *Üzeyir Hacıbəyli, ədib, bəstəkar, musiqişünas, publisist.*

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (1885-1948) özünün misilsiz xidmətlərilə Azərbaycan mədəniyyətinin heykəlinə çevrilmiş ağır bir şəxsiyyətdir. Bu nadir şəxsiyyət adı ilə Azərbaycan milli musiqisini rəmzləşdirən dahi bir simadır. Adı milli musiqimizin ifadəçisinə çevrilən bu əvəzsiz şəxsiyyət və görkəmli simanın bütün taleyi Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı olub. Bütün bu misilsiz xidmətlərinə görədir ki, ölkəmizdə "Konstitusiya və Suverenlik ili" olaraq elan edilmiş 2025-ci ildə Üzeyir bəyin əziz xatirəsini ehtiram nümunəsi olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 140 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda deyildiyi kimi: "Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğurulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir" [13].

**Üzeyir bəy Hacıbəylinin bədii yaradıcılığı.** Üzeyir bəy Hacıbəyli həm də Azərbaycan ədəbiyyatının nəhəng və qüdrətli ədiblərindən biri idi. XX əsrin əvvəllərində mövcud olmuş dərin bir xəzinə təşkil edən ədəbi mühitin zəngin nümunələri arasında Üzeyir Hacıbəylinin də ərsəyə gətir-

diyi çox qiymətli bədii əsərlərin mühüm yeri və rolu var. "Üzeyir Hacıbəyli ədəbi-bədii aləmə həyatı yaxşı və dərindən bilən bir yazıçı kimi gəldi. ...Zamanın qabaqcıl ideyaları səviyyəsində dayanmağa, xalqının keçmişinə hörmət etməyə, onun milli ləyaqətini qorumağa, indisi və gələcəyi ilə yaşamağa başladı" [4, s. 4]. Üzeyir bəy bir tərəfdən istedadlı yazıçı, alovlu publisist, dünya ədəbiyyatı nümunələrindən bacarıqla tərcümələr aparan tərcüməçi idi. Böyük fikir adamı olan Ü.Hacıbəyli özünün dərin mənalı publisistikası ilə Azərbaycan ictimai fikri və mətbuat tarixini zənginləşdirmişdir. "Bu görkəmli mətbuat adamı "Həyat", "İrşad", "Molla Nəsrəddin", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal", "Kaspi", "Tərcüman", "Azərbaycan" kimi mətbuat orqanlarında həyati əhəmiyyətli məsələlər ərz edən məqalələrilə çıxış etmişdir. "O olmasın, bu olsun", o cümlədən "Arşın mal alan", "Ər və Arvad" kimi misilsiz komediyaları özünün tənqidi ruhu və qaldırdığı problemlərlə ictimai şüurun oyanışında mühüm rol oynadığı kimi, milli musiqi ənənələri üzərində yaratdığı mahnıları da mənəvi dəyərlərimizin qorunması və inkişafında mühüm istiqamət təşkil etmişdir" [7]. Məşhur "Ordan-Burdan" silsilə məqalələrində dövrün bir sıra vacib məsələlərini qaldırmağa müvəffəq olmuşdu. "Leyli və Məcnun", "Şeyx Sənan", "Şah Abbas və Xurşid Banu", "Əsli və Kərəm", "Harun və Leyla", "Rüstəm və Söhrab", "Koroğlu" kimi operaları Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafına ciddi stimul vermiş, yeni yaradıcılıq ənənələrinin formalaşmasına şərt olmuşdu. Çoxsaylı satirik hekayələri, səhnəcikləri və məqalələri də Azərbaycan ədəbi fikrini zənginləşdirməklə bərabər, ictimai düşüncə və milli şüurun oyanışına mühüm töhfələr vermişdi. Ü.Hacıbəylinin "Pristav ağa", "Bir firəng ilə söhbətim", "Üçüncü dəllək", "Məşədi kabilin Təbriz səfəri", "Bazar söhbəti", "Hara qaçacaqlar?", "Bir dəlinin dəftərindən", "Başa düşmədi" və b. kimi hekayələrindən bəhs edilir. Fikrimizcə, janrın ümumi bədii-estetik xüsusiyyətlərini nəzərə almaqla təqdim edilən hekayələr arasındakı bəzi əsərlərin felyeton olduğuna qənaət gətirmək mümkündür. Bizim fikrimizə görə, bu əsərlər arasındakı "Pristav ağa", "Təhsil", "Başa düşmədi", "Qarabağın keçmiş günlərindən" əsərlərini hekayə, "Bir firəng ilə söhbətim", "Üçüncü dəllək", "Məşədi kabilin Təbriz səfəri", "Bazar söhbəti", "Hara qaçacaqlar?", "Bir dəlinin dəftərindən" kimi əsərlərindən isə felyeton kimi bəhs etmək doğru olar. Çünki birincilərdə bədiilik, xüsusilə epik təhkiyə, kompozisiya və süjetlilik kimi keyfiyyətləri daha aydın müşahidə etmək mümkündür. Lakin ikincilərdə bu qeyd edilənlər zəif, publisistik pafos və keyfiyyətlər üstünlük təşkil edir. "Pristav ağa" hekayəsində rusçar ağalığı və bölgələrdə yaratdıqları zülüm öz əksini tapmışdır. Müsəlman aləminin köləliyi, zülmə məruz qalması və başsızlıq dərdi bədii təqdimini tapmışdır. Əsər ümumi ruhu və məzmun keyfiyyətləri ilə tənqidi realizmin banisi Cəlil Məmmədquluzadənin "Qurbanəli bəy", "Danabaş kəndinin məktəbi", "Danabaş kəndinin müəllimi" əsərlərini xatırladır. "Təhsil" əsərində isə dini təhsildən bəhs edilməklə bu təhsilin məzmun və metod etibarilə geridə qalıb dünyanın müasir inkişafı və tələblərilə insan yetişdirməyə əngəl və maneə olduğu aydın surətdə göstərilmişdir. "Qarabağın keçmiş günlərindən" əsərində isə Azərbaycanın əzəli torpağı olan bu gözəl diyarda yaxşısı və pisi ilə baş verən ictimai məzmunlu əhvalatlardan bəhs edilmişdir.

Üzeyir bəy həmçinin böyük xalq müəllimi idi. Azərbaycan balalarının savadlanmasında can qoyan maarif xadimlərindən biri də Üzeyir bəy Hacıbəyli idi. Onun "Rusi-türki və Türki-rusi" lüğəti və "Hesab məsələləri" adlı metodik vəsaiti həm dövrü üçün yenilikçilik idi, həm də xalq müəlliminin can yanğısının təzahürü.

**Üzeyir Hacıbəylinin yaradıcılığında istiqlal düşüncəsi və cümhuriyyət məsələsi.** Artıq qeyd etdiyimiz kimi, bir sıra mətbuat orqanlarında ciddi məqalələrlə çıxış edən Ü.Hacıbəyli zəngin və əhəmiyyətli publisistikaya sahib idi. Onun publisistikasında silsilə tipli məqalələr özünəməxsusluq təşkil edirdi. Məhəmmədağa Şahtaxtılının əsasını qoyduğu publisistikada silsilə məqalə janrını Üzeyir Hacıbəyli öz yaradıcılığında daha da inkişaf etdirir. Bunun səbəbi isə Ü.Hacıbəylinin bir mövzu istiqamətində araşdırma və şərhini davamlı olaraq diqqətdə saxlamaq, onu daha aydın anlatmaq və mənimsətmək məqsədindən irəli gəlirdi. Ü.Hacıbəylinin publisistikasını dövrləşdirən ədəbiyyatşünas B.Əhmədov onun publisistikasını səciyyələndirərək yazırdı ki, Ü.Hacıbəylinin "hər iki

dövr publisistik yaradıcılığını birləşdirən daha bir ümumi cəhət bütün maneələrə baxmayaraq mümkün olduğu qədər həqiqəti yazmaq və xalqın milli mənafeyindən çıxış etməkdən ibarətdir” [1, s. 336]. Timuçin Əfəndiyev də ədibin publisistikasını səciyyələndirərkən belə qeyd edirdi ki: “Ü.Hacıbəylinin felyetonlarının böyük bir qismi milli düşüncəni oyatmağa, özünütanımaya yönəlmişdir. O, hər bir felyetonda bir problem qoyur və ardıcıl olaraq həmin problemə bəzən bir neçə felyeton həsr edirdi. Bu felyetonlarda xalqın, millətin özünü tanıması üçün ayrı-ayrı problemlər qoyulurdu; cəhalət, geridə qalmışlıq, maarif, cəsarət, ləyaqət, mərifət, cəmiyyət və s.” [3]. Üzeyir Hacıbəyli “Bəyani-məslək”, “Əhvalımızdan”, “Hökumət və millət”, “Müalicə” felyeton-dramında, “Fəxr etməliyizmi, məyus olmalıyızmı?” kimi felyeton və publisistik əsərlərində milli düşüncə, oyanış, istiqlal ideyası barədə düşüncələrini qələmə alıb. Görkəmli mollanəsrəddinçi ədib, tənqidi realist ədiblərlə fikir və məslək birliyi nümayiş etdirərək “hər bir kəs …insan kimi ömür sürməyin yolunu bilib, …sərbəst və müstəqil” [5, s. 123] yaşamanın qədir-qiymətini gündəmə gətirərək “hər kəsin öz hüququ və özgənin hüququnu tanıyıb öz hüququnu müdafiəyə qadir olmağı ilə özgə-nin hüququna təcavüz etməyə qüdrətsiz” olmasından bəhs edir [5, s. 124]. Ədib hürriyyət və istiqlalı milli-mədəni inkişaf üçün başlıca stimul kimi qiymətləndirirdi. Ədib bunu da diqqətə çatdırırdı ki, hürriyyətdən, istiqlaldan məhrum qalan xalqlar həm də müdafiə və məsuliyyətdən məhrum qalırlar [5, s. 125]. “Hürriyyət nemətindən məhrum qalmış ölkələrdə” asayişin də pozuq olduğunu dilə gətirən ədib “mədəniyyətsizlik və mərifətsizliyi” [5, s. 124] əsas səbəb kimi görürdü. Bunun da səbəbindən Qafqaz müsəlmanlarının hürriyyət və haqq-hüquqdan məhrum qaldıqlarını, onların arasında milli düşüncə, istiqlal həvəsi və müstəqillik mücadiləsinin olmamasını yanğı ilə dilə gətirirdi. Hətta Ü.Hacıbəyli dövrün mötəbər ziyalıları Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə kimi ideoloqlarıla həmrəylik nümayiş etdirərək millətinin Rusiyada baş verən inqilaba qarşı tamaşaçılıq xüsusiyyətinə də qınaqla yanaşır, bu tamaşaçılıqda da pis tamaşaçı olmasına kədərlə münasibət bəsləyirdi. Halbuki inqilabçıların fəaliyyətlərini xalqın hürriyyəti üçün olduğunu qeyd edirdi [5, s. 305-306]. Buna görə də hələ millətini ayılmamış, öz xeyrini, faydasını bilməyən, avam, fanatizm və köhnəlmiş adət-ənənələr içərisində “ölü” gördükdə, “Türk” qəzetinin oyanışa dəvət çağırışına mollanəsrəd-dinçilərin ənənəvi olaraq istifadə etdikləri Sədinin “Xofte ra xofte konəd bidar” [Yuxuya getmiş yuxuda olanı oyada bilərmi?] misrası ilə cavab verirdi. Mirzə Cəlilin “Tacül-hac” felyetonunda olan kimi Ü.Hacıbəyli də bu görkəmli ideoloqun və ümumən mənsub olduğu tənqidi realizmin, molla-nəsrəddinçilik hərəkatının ideya-məslək istiqamətinə uyğun olaraq özünün “Müdhiş etiraz” adlı əsərində XX əsrin əvvəllərindəki ictimai-siyasi durumu təhlil edərək yazırdı: “Bu gün dünyada bir yer yoxdur ki, oradan iğtişaş sədası, şuriş səsi gəlməsin. Demək olar ki, yaşadığımız bu XX əsrdə bütün dünya ümumi bir qələyan, hərcayi bir həyəcan içində titrəməkdədir. …Bunlar hamısı çürü-müş, köhnəlmiş əməldən düşmüş qayda və nizamlara qarşı qəti bir etirazdır. Görünür ki, bu XX əsr keçmiş əsrlər tərəfindən bərpa edilmiş qayda və nizamlara təhəmmül eləmir” [5, s. 332-333].

Mübarizələr dövrünü təsvir edən, dövrün millətlərdən istiqlal və yeni yaşayış üçün mücadilə, mübarizə tələb etdiyi bir dönəmdə Ü.Hacıbəyli mənsub olduğu ictimai mühitdəki min sifətliliyi də tənqid eləmək məcburiyyətində qalır. “Ordan-burdan. Sədini tənqid” felyetonunda isə ədib bu mücadilə dövrünün qarşısında fəal, mübariz, ideyalı, məsləkli mücahidlər əvəzinə, hərdən bir ideya dəyişən, bir firqəyə qoşulub xeyir güdən mənfəətpərəstləri təqdim və tənqid edirdi [5, s. 342].

Üzeyir Hacıbəylinin “Azərbaycan” qəzetində dərc etdirdiyi bir sıra məqalələrində qaldırdığı məsələlər bu gün üçün də öz aktuallığını qorumaqdadır. Çünki müasir Azərbaycanın bu gün qarşılaşdığı problemlərin, o cümlədən həlli vacib olan doğma torpaqlarından bir hissəsi olan Zəngəzur məsələsinin də əsası məhz o illərdə qoyulmuşdur. Maraqlıdır ki, Üzeyir bəyin “Azərbaycan” qəzetində dərc etdiyi məqalələrin bir çoxu Azərbaycanın işğalçılıq siyasətinə məruz qalan torpaqları və bu qisim problemlərinə həsr olunmuşdur. Müəllif “Ermənistan və Azərbaycan münasibəti”, “Qarabağ haqqında”, “Naxçıvan və Qarabağ”, “Kirimiyorlar”, “Başlanır” və bu kimi məqalələrində məhz o zamanlar əsası qoyulmuş tale yüklü tarixi problemlərə münasibət göstərmişdir. Bu barədə ayrıca

bəhs edən akademik Zemfira Səfərova göstərirdi ki, “Ermənistan və Azərbaycan münasibəti” məqaləsində Üzeyir bəy “Zəngəzur məsələsini” ermənilər tərəfindən meydana çıxarılmış “Qarabağ məsələsinin mabadi” hesab edərək yazır: Zəngəzur Qarabağın bir hissəsi və Qarabağı təşkil edən dörd uyezddən biridir... Ermənistanın “Zəngəzur bizimdir” deyə haqsız iddialarda bulunması aşkardır ki, “ixtilafı hüdud məqsədlərini sülh və sazişlə həll edəlim deyil, Azərbaycanın tamamiyyəti – mülkiyyətinə qarşı sui-qəsd hiyləsidir” [10].

Görkəmli ədibin 1919-cu ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının bir illiyi münasibətilə yazdığı məqalədə Azərbaycan istiqlal hərəkatının bütün türk dünyası və ictimai düşüncəsində oynadığı rolu cahanşümul olaraq qiymətləndirməsi xüsusilə diqqəti cəlb edir və böyük maraq oyadır. Böyük ədib yazırdı: “Bu gün istiqlalını elan etmiş olduğumuz və istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanımanlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür.

Növzad dövlətimizin təvəllüdü, ana bətnindən doğulması – çətinliklə əmələ gəldi. Ana vətən balasını doğarkən özünü qurban verəcək dərəcəsinə gəlmişdi... Azərbaycan torpağı bir xərabəzərə, bir viranəyə dönəcək idi. Onun, o madəri-mehribanın nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar həm anası bətnindəki balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurd-xaş etməklə anasını da, balasını da öldürmək istəyirdilər. Lakin bu zəif sinə içində gizlənmiş eşq və məhəbbət o dərəcə böyük bir qüvvətə haiz idi ki, zəif cismi qüvvətli ruh sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarını qeyb etmədi.

Və bu gün doğduğu övladının sənaye-dövriyəsi münasibətiylə bayram qurub və övladını mavi, al və yaşıl rəngli parçalarla bəzəyib nümayişkaranə bir surətdə bəyani-iftixar etmədədir. Bir yaşlı dövlətimiz gələcəkdə, yaxın gələcəkdə türklüğün ümidgahı, islamlığın pənahı və aləm mədəniyyətinin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirmədədir. ...Filhəqiqə Azərbaycan idi ki, türk şərqində sağlam bir milliyyət hissi oyatdı, millət nə olduğunu millətini unutmuş türklərə bildirdi. Onlara “sən əvvəl-əvvəl bir türksən” dedi və “türkəm” dedirtdi” [12].

**Azərbaycan peşəkar musiqisi və musiqişünaslığının mənəvi atası...** “Üzeyir bəy Hacıbəyli Azərbaycan ictimai, ədəbi, mədəni fikrinə, onun incəsənəti, mədəniyyəti, ədəbiyyatı, publisistikası, teatrı və b. sahələrinə özünün misilsiz yaradıcılığı və xidmətləri ilə nadir töhfələr vermişdi. Haqlı olaraq Üzeyir bəyin adı gələndə nəhəng və əzəmətli bir Azərbaycan Konservatoriyası göz önünə gəlir. Üzeyir bəy təkbaşına belə Azərbaycan musiqisini təmsil etməyə qadir və qabil bir şəxsiyyət, nəhəng və sanballı bir sima idi” [6]. Bütöv bir ailə olaraq Hacıbəylilər Azərbaycan peşəkar musiqi və incəsənətinin formalaşması və inkişafının ağır sütunları kimi çıxış ediblər. Üzeyir bəyin musiqiçi kimi ortaya çıxması və şöhrət tapmasında qocaman Qafqazın qosqoca Konservatoriyası adlanan Qarabağın (!) nə qədər rolu var idisə, bu doğma yurdun da belə bir şöhrətə qabil olmasında onun yetirdiyi Üzeyir bəy kimi sayseçmə və çoxsaylı musiqiçi övladları mühüm rol oynamışdı. Üzeyir bəy Azərbaycan peşəkar musiqisinə az qala övladlıq verən böyük bir şəxsiyyət, musiqiçilərin mənəvi atası idi. Görkəmli tədqiqatçı və xatirə ədəbiyyatının tanınmış nümayəndəsi Qulam Məmmədli çox doğru göstərirdi ki, Üzeyir bəy “Şərq musiqi və nəğmə məsələlərində ... misilsiz avtoritet, tənqidçi və icraçı ustad” [8, s. 14] kimi şöhrət qazanmışdır. 1908-ci ildə başlatdığı opera janrı Azərbaycan musiqisi və incəsənətinə təkcə ölkəmiz üçün deyil, bütün geniş bölgə – Qafqaz və digər yaxın türk-müsəlman ölkələri üçün istiqamətləndirici faktor oldu. Onun bəstələdiyi operalar təkcə musiqi sənətimizə zənginlik qatmadı, həm də librettoların mətninin aid olduğu əsərlərə yeni bir can, əbədiyaşarlıq və şöhrət bəxş etdi. 1908-ci ildə Şərqin ilk operası olaraq yadda qalan dahi Füzulinin “Leyli və Məcnun” əsərinin əsasında hazırlanan opera həm də Şərqin dahi Füzulisinə yenidən böyük bir şöhrət və məhəbbət qazandırdı.

**Milli-mənəvi dəyərlərin, xalq folklorunun yaşadıcısı.** Üzeyir bəy həm də Naxçıvan üçün doğma, əlahiddə bir şəxsiyyət idi. Əvvəla bütün bölgələrdə olan kimi, Naxçıvanda da peşəkar musiqi mədəniyyətinin inkişafı məhz onun və ardıcıllarının sayəsində mövcud olub. Çünki bu dahi şəxsiy-

yət ümumən Azərbaycan milli musiqi təhsil sisteminin əsasını qoyub. Bilavasitə Üzeyir Hacıbəylinin şəxsi səyləri ilə Bakıda milli musiqi təhsili məktəblərinin açılmasından sonra onun tövsiyəsi və dəstəyi ilə Naxçıvanda da milli musiqi təhsilinin əsası qoyulmuşdur. Hətta yazılanlara görə, dahi bəstəkarın böyük qardaşı, hətta qardaşları Üzeyir və Ceyhun Hacıbəylilərin formalaşmasında böyük xidmətləri olmuş Zülfüqar Hacıbəyli müvəqqəti olaraq Naxçıvanda yaşayıb-yaratmış, Üzeyir bəyi Naxçıvan mühiti, mədəni şəraiti və inkişafı ilə o, yaxından tanış etmişdir. Məhz bu nəhəng mədəniyyət xadimlərinin əzmkar fəaliyyətlərinin nəticəsi olaraq Naxçıvanda da musiqi təhsilinə şərait yaradılır. Musiqi orta-ixtisas məktəbi Naxçıvanda fəaliyyət göstərərək burada peşəkar musiqinin inkişafına böyük töhfələr verir. Hətta bunu da deməк lazımdır ki, böyük Üzeyir bəy 1937-ci ildə SSRİ Ali Sovetinin Millətlər Sovetinə məhz buradan – Naxçıvanın Şərur rayonundan namizədliyi verilərək seçilmişdir. Elə bu ildə də, yəni 1937-ci ildə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanda musiqi məktəbinin açılması ilə bağlı qərar verilmiş, tədris ili üçün şagird kontingentinin say tərkibi də müəyyənləşdirilmişdir. Həmin musiqi məktəbində şagirdlərə 5 şöbə üzrə: tar, kamança, royal, nəfəsli və simli alətlər üzrə dərslər tədris edilib. Üzeyir bəy Naxçıvanda olarkən ətraflı maraqlandığı bu zəngin mədəniyyət beşiyində yallı rəqsləri daha çox diqqətini cəlb edib və ümumən, Naxçıvanın, onun Şərur bölgəsinin folklor etibarilə zəngin olduğuna da diqqət çəkərək yazıb: "Şərur Azərbaycan folklor mədəniyyətinin beşiyidir". O, yallıların da ana məkanının Şərur olduğunu yazaraq: "Yallının vətəni Şərurdur, yallı Şərurda doğulub", – deyə öz fikrini ifadə edib.

O həm də iki dövlət himnimizin musiqisinin müəllifidir. Bu gün də dövlət himnimiz olan, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan SSR-in dövlət himninin musiqisini Üzeyir bəy Hacıbəyli yazmışdı. Qüvvətli publisist kimi tanınan Üzeyir bəy Hacıbəyli habelə "Həqiqət", "Tərəqqi" kimi qəzetlərin redaktoru, eləcə də qardaşı Zülfüqar Hacıbəyovdan sonra ilk rəsmi dövlət mətbuat orqanımız olan Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı "Azərbaycan" qəzetinin baş redaktoru olmuşdur. Bütün bunlara və bundan ziyadə olub sadalanmayan faktlara görə Üzeyir bəy şəxsiyyəti, siması istər yaxın, istərsə də uzaqdan həmişə nəhəng, əzəmətli, canlı və dərindir.

Onun əsərləri həm də Azərbaycan xalq sənətinə yeni güc verdi və onun yaşamasına zəmin hazırladı. Azərbaycan dastanları, məşhur əsərləri onun və onun ardıcıllarının sayəsində yenidən yaşamaq haqqı qazandı və heç zaman da unudulmadı. Azərbaycan xalq mahnıları məhz bu dahi şəxsiyyətin təşəbbüsü ilə nota çevrilərək xalqın əbədilik milli sərvətinə, zəngin xəzinəsinə çevrilərək itib-batmaqdan xilas oldu. Naxçıvanın məşhur yallıları bu qədirbilən şəxsiyyətin sayəsində yenidən həyat və əsl sənət taleyi yaşamağa imkan tapdı. Beləliklə də, dünya-bəşər mədəniyyətinə Azərbaycan mədəniyyəti adlı təkrarolunmaz, özünəməxsus, zəngin, qədim və əlvan bir mövcudluq naxışı bəxş etdi. O təkcə milli mədəniyyət və musiqimizə, kino sənəti və teatrımıza can vermədi, həm də bu zəngin milli sərvətin elmi şəkildə öyrənilməsinə də başlanğıc verdi, özünün həmişəyaşar elmi əsərlərilə nümunə və zəmin yaratdı. "Muğamat və xalq mahnılarının ifası haqqında", "Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında", "Vəzifeyi-musiqiyyəmizə aid məsələlər", "Türk operaları haqqında", "Azərbaycan musiqi həyatına bir nəzər", "Musiqidə xəlqilik" və b. çoxsaylı məqalələri ilə fundamental musiqi, incəsənət, teatr və mədəniyyət sahələrinə dair sanballı elmi əsərlər ortaya qoydu. Və əlbəttə ki, Azərbaycan elmində mədəniyyətşünaslıq, sənətşünaslıq və b. kimi elm sahələrinin binasını qoydu.

**Nəticə.** Bəli, Üzeyir bəyin əziz xatirəsi unudulmazdır: o, hər zaman qəlbimizdə, dilimizdə, şüurumuzdadır. Hər zaman təntənə ilə çalınan Uvertüranın səfərbəredici, birləşdirici musiqisində, əl qoyub qəlbimizə dərin bir intizamla oxuduğumuz dövlətimizin himnində, zümzümə etdiyimiz çoxsaylı mahnılarımızın səsində, gülüşümüzdə və kədərimizdə, həsrətimizdə və vüsalımızdadır. O hər zaman bizimlədir, qüdrətli və ana vətənimiz Azərbaycanın dalğalanan üçrəngli bayrağının örpək olduğu, göz atdığı, baş çəkdiyi, üz qoyduğu geniş-geniş, uzaq-uzaq ərazilərdə, üfüqlərindədi...

Azərbaycan xalqının bu dahi bəstəkar oğlunun anadan olduğu gün olan 18 sentyabr da ölkəmizdə Milli Musiqi Günü olaraq qeyd edilir. Ölkəmizdə Milli Musiqi Günü 1995-ci ildən Azərbaycan xalqının böyük oğlu, milli mədəniyyət və incəsənətimizin böyük hamisi ümummilli lider

Heydər Əliyev tərəfindən dahi bəstəkarın şərəfinə rəsmiləşdirilib. Üzeyir bəyin heç vaxt təravətini itirməyən irsi xalqımız üçün misilsiz sərvətdir. Bu gün milli musiqi sənətimiz və zəngin irsimiz uğurla qorunur, yaşadılır və təbliğ edilir.

Unudulmaz Üzeyir bəy də məhz bu mədəni sərvətimizin yaşadılmasında imzası olan əvəzsiz dühalarımızdan biridir. Bu nəhəng dühaya özünün səmimi münasibəti, nəhəng hörməti və intəhasız ehtiramını bildirən Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev dahi şəxsiyyətin anadan olmasının 110 illiyinə həsr edilmiş təntənəli gecədə çıxış edərək demişdir: "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur. ...Üzeyir Hacıbəyov dahi bir bəstəkar, musiqiçi, eyni zamanda böyük alimdir, filosofdur, maarifçidir. Xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hislərinin yaranmasında, formalaşmasında, inkişaf etməsində Üzeyir Hacıbəyovun əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır. ...Dahi Üzeyir bəy Hacıbəyovun xatirəsi qarşısında baş əyirəm. Bütün Azərbaycan xalqı bu gün Üzeyir Hacıbəyovun xatirəsi qarşısında baş əyir. Mən onun xatirəsinə hörmət və ehtiramımı bildirərək bu gün bir daha xalqımızı birliyə dəvət edirəm. ...O, bizim üçün əzizdir və xoşbəxtlik də ondan ibarətdir ki, o, bu gün də yaşayır" [2, s. 275; 280; 285]. Qeyd edək ki, Ulu Öndərin ən çox sevdiyi bəstəkar da, özünün birmənalı şəkildə dediyi kimi, Üzeyir bəy Hacıbəyli idi...

Üzeyir bəyin əziz xatirəsi hər zaman qəlbimizdədir. Böyük şairimiz, sözün dahi ustadı Səməd Vurğun Azərbaycan xalqının bu görkəmli övladına "Böyük bəstəkar", "Bəstəkar", "Eşq olsun sənətkara!" kimi şeirlərini həsr etmiş, bu nəhəng şəxsiyyətin dünyadan köçməsinə ağı deyərcəsinə yazdığı məşhur şeirində belə yazmışdır:

Bir qocaman qartalın, qanadları dayandı,
O bir daha qıy vurub dağlardan keçməyəcək.
Dünya öz yerindədir, yenə səhər oyandı,
O, vətən dağlarının suyundan içməyəcək.

Ölüm sevinməsin qoy! Ömrünü vermir bada!
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər! [11, s. 188]

Bəli, böyük Üzeyir bəyin bütün ömrü Azərbaycan mədəniyyətinin inkişafına həsr olundu. Hər nə yazdısa, hər nə iş gördüsə, canından əziz sevdiyi vətəni Azərbaycanın inkişafı üçün elədi. O təkcə Azərbaycan mədəniyyətini dünyada tanıdan və onun səfirinə çevrilən bir şəxsiyyət deyil. O həm də bir eli, bir ölkəni, bir torpağı mahnılarına sığdıran və ruhunda daşıyan vətən fədaisi idi. Azərbaycan adlı vətənin və ona olan sevginin notlarını yazıb ifadə edən bu dahi şəxsiyyət həm də zəngin milli mədəniyyətilə tanıtdığı ölkənin dünyadakı fəxri səfiridir. Bu nadir şəxsiyyət həm də təmsil etdiyi zəngin milli mədəniyyətimizlə düşmənlərimizə və bizi sevməyənlərə bir notadır. Bu torpaqda bir Üzeyir ruhu dolaşır üzü Şuşaya, Qarabağa doğru. "Koroğlu" Uvertürasının notları altında özü kimi əsgər ruhları ilə xalqımızı birlik və həmrəyliyə səsləyərək bu ölkənin sərhədlərinə keşik çəkir.

Bütün Azərbaycan xalqı böyük təntənə ilə dahi Üzeyir bəyin Böyük Zəfər sevincinə bürünmüş 140 yaşını qeyd edir. Çünki Üzeyir bəy torpaqlarımızın işğaldan azad edilməsi boyunca hər zaman bizimləydi. O zaman döyüş ruhu əxz edən cəngilərilə, bu gün isə Qələbəmizin sevincini və milli qürurumuzu ifadə edən marşı və uvertürası ilə. Bizim uvertüramız öz Koroğlusuna və Koroğlularına səslənir, onların birlik rəmzi olan vətən nəğmələrini, azadlıq hayqırışlarını, döyüş nərələrini özündə ifadə edir. İndi bizim uvertüramızın Koroğlusu – Azərbaycandır, Azərbaycan xalqıdır, Ali Baş Komandanımız və Müzəffər Ordumuzdur!

## ƏDƏBİYYAT

1. Əhmədov B. Azərbaycan ədəbiyyatı tarixi: 3 cilddə. I c., Bakı: Elm və təhsil, 2011, 480 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İyun, 1995 – noyabr, 1995. Bakı: Azərnəşr, 1998, 511 s.
3. Əfəndiyev T. Üzeyir Hacıbəyli publisistikasında milli özünüdərk. V məqalə. "525-ci qəzet", 2020, 15 oktyabr.
4. Hacibəyli Ü. Seçilmiş əsərləri: 2 cilddə. I c., Bakı: Şərq-Qərb, 2005, 408 s.
5. Hacibəyli Ü. Seçilmiş əsərləri: 2 cilddə. II c., Bakı: Şərq-Qərb, 2005, 456 s.
6. Qasımov R. Bir ömrün üvertürası. "Şərq qapısı" qəz., 2025, 11 fevral.
7. Qasımov R. Çağdaş mədəniyyətimizdə abidə şəxsiyyət. "525-ci qəzet", 2025, 19 fevral.
8. Məmmədli Q. Üzeyir Hacıbəyov. 1895-1948. Həyatı və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1984.
9. Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı: Şərq-Qərb, 2007, 264 s.
10. Səfərova Z. Üzeyir Hacıbəylinin "Azərbaycan" qəzetində çıxmış məqalələri (1918-1920-ci illər). "525-ci qəzet", 2025, 22 aprel.
11. Vurğun S. Seçilmiş əsərləri: 5 cilddə. II c., Bakı: Şərq-Qərb, 2005, 248 s.
12. "Azərbaycan" qəz., 1919, 28 may // URL: http://konservatoriya.az/?p=3879.
13. Üzeyir Hacıbəylinin 140-illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // URL: https://president.az/az/articles/view/68077.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ramizqasimli44@gamil.com***

**Ramiz Gasimov**

### OVERTURE TO THE LIFE OF UZEYIR BEY HAJIBEYLI: LITERARY, SCIENTIFIC, AND CULTURAL ASPECTS

The article examines the unrivaled contribution of the great Azerbaijani writer, publicist, composer, musicologist, and public figure Uzeyir Hajibeyli to the culture and literature of the Azerbaijani people. It was noted that the environment in which Uzeyir Bey grew up played an important role in his spiritual education and future destiny. Karabakh, with its rich musical environment, determined the further path of Uzeyir as a composer and musicologist and played a significant role in his recognition as a talented writer, translator, and publicist. Uzeyir Hajibeyli is an outstanding artist who enriched Azerbaijani literature with his works, brought the classical heritage back to life in a new era, and made it even more memorable by transferring it to the sphere of music. Just as his unique comedies "If Not That One, Then This One", "Arshin mal alan", "Husband and wife" played an significant role in awakening public consciousness with their critical spirit and the problems raised in them, his songs based on national musical traditions also became an important direction in the protection and development of our spiritual values. His rich journalistic heritage is inextricably linked with the ideas of national revival and the struggle for independence of the Azerbaijani people. U. Hajibeyli worked in many printed media and published his articles. The great writer came to the fore with his activities in such prestigious printed publications of that time as "Hayat", "Irshad", "Molla Nasreddin", "Taraggi", "Hagigat", "Igbal", "Yeni Igbal", "Kaspi" and "Tarjuman". U. Hajibeyli was also responsible for the state newspaper "Azerbaijan" during the Azerbaijan Democratic Republic and was remembered for his valuable works and merits. His journalistic works deserve to be considered a reliable source on the history of Azerbaijan's independence. U. Hajibeyli's creative work also played an important role in the people's achievement of the right to independence and the awakening of their national consciousness. In his famous series of articles "From There to Here", he managed to raise several critical issues of that time. U. Hajibeyli's merits

in the development of professional national music of Azerbaijan, in the notation of folk songs, in the transformation of our classical and folklore heritage into opera, and in the formation of the science of musicology are also invaluable. Operas such as “Leyli and Majnun”, “Sheikh Senan”, “Shah Abbas and Khurshid Banu”, “Asli and Kerem”, “Harun and Leyla”, “Rustam and Sohrab” and “Koroğlu” played a significant role in the development of our culture.

**Keywords:** *Uzeyir Hajibeyli, writer, composer, musicologist, publicist.*

**Рамиз Гасымов**

**УВЕРТЮРА К ЖИЗНИ УЗЕИР БЕЯ ГАДЖИБЕЙЛИ: ЛИТЕРАТУРНЫЙ, НАУЧНЫЙ И КУЛЬТУРНЫЙ АСПЕКТ**

В статье рассматривается непревзойденный вклад великого азербайджанского писателя, публициста, композитора, музыковеда и общественного деятеля Узеира Гаджибейли в культуру и литературу азербайджанского народа. Было отмечено, что среда, в которой вырос Узеир бей, сыграла важную роль в его духовном воспитании и дальнейшей судьбе. Карабах с его богатой музыкальной средой определил дальнейший путь Узеира как композитора и музыковеда, сыграл важную роль в его признании как талантливого писателя, переводчика и публициста. Узеир Гаджибейли – выдающийся художник, обогативший азербайджанскую литературу своими произведениями, вернувший классическое наследие к жизни в новую эпоху и сделавший его еще более запоминающимся, перенеся его в сферу музыки. Подобно тому, как его уникальные комедии «Не та, так эта», «Аршин мал алан», «Муж и жена» сыграли важную роль в пробуждении общественного сознания своим критическим духом и поднятыми в них проблемами, его песни, основанные на национальных музыкальных традициях, также стали важным направлением в деле защиты и развития наших духовных ценностей. Его богатое публицистическое наследие неразрывно связано с идеями национального возрождения и борьбы за независимость азербайджанского народа. У.Гаджибейли работал в ряде печатных органов и публиковал собственные статьи. Великий литератор выдвинулся на первый план своей деятельностью в таких престижных печатных изданиях того времени, как «Хаят», «Иршад», «Молла Насреддин», «Терегги», «Хагигат», «Икбал», «Йени Икбал», «Каспи» и «Тарджуман». У.Гаджибейли также отвечал за государственную газету «Азербайджан» во времена Азербайджанской Демократической Республики и запомнился своими ценными трудами и заслугами. Его публицистические труды заслуживают того, чтобы считаться достоверным источником по истории независимости Азербайджана. Творческая деятельность У.Гаджибейли также сыграла важную роль в достижении народом права на независимость и пробуждении его национального самосознания. В своей знаменитой серии статей «Оттуда-отсюда» ему удалось поднять ряд важных проблем того времени. Неоценимы заслуги У.Гаджибейли и в развитии профессиональной национальной музыки Азербайджана, в нотации народных песен, в преобразовании нашего классического и фольклорного наследия в оперу, в становлении науки музыковедения. Такие оперы, как «Лейли и Меджнун», «Шейх Сенан», «Шах Аббас и Хуршид Бану», «Асли и Керем», «Харун и Лейла», «Рустам и Сохраб» и «Кероглу» сыграли видную роль в развитии нашей культуры.

**Ключевые слова:** *Узеир Гаджибейли, писатель, композитор, музыковед, публицист.*

*(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 16.09.2025**
**Son variant 20.10.2025**